# AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATINA DAİR TƏDQİQLƏR

2017 / 1

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATINA DAİR TƏDQİQLƏR

2017 / 1 (50)

BAKI – 2017

**Toplu Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.**

**Redaksiya heyəti:**
**Kamal ABDULLA, Mahmud ALLAHMANLI, Baxıtjan AZİBAYEVA (Qazaxıstan), Füzuli BAYAT, Nizami CƏFƏROV, Adil CƏMİL, Lyubov ÇİMPOYEŞ (Moldova), Rəhilə DAVUT (Çin), Metin EKİCİ (Türkiyə), Kamran ƏLİYEV, Əfzələddin ƏSGƏR, İsa HƏBİBBƏYLİ, Ağaverdi XƏLİL, Rza XƏLİLOV, Firdaus XİSAMİTDİNOV (Rusiya), Vasiliy İLLARİYONOV (Rusiya), Mamatkul JURAYEV (Özbəkistan), Muxtar KAZIMOĞLU-İMANOV, Rayisa KIDIRBAYEVA (Qırğızıstan), Ramazan QAFARLI, Məhərrəm QASIMLI, Elxan MƏMMƏDLİ, Qəzənfər PAŞAYEV, Afaq RAMAZANOVA, Seyfəddin RZASOY, Muradgəldi SOYEQOV (Türkmənistan), Ləman SÜLEYMANOVA, Əli ŞAMİL, Atilla YORMA (Finlandiya), İlseyar ZAKİROVA (Tatarıstan)**

| | |
|---|---|
| **Baş redaktor:** | **Əziz ƏLƏKBƏRLİ** |
| **Baş redaktorun müavini:** | **Afaq RAMAZANOVA** |
| **Məsul katib:** | **Səadət ƏLİYEVA** |

**“Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər”. Elmi-ədəbi toplu, 2017/1 (50).** Bakı, “Elm və təhsil”, 2017, -134 səh.

**ISSN 2309-7922**

**A 4603000000 Qrifli nəşr**
**N-098-2017**

**© Folklor İnstitutu, 2017**

# BAŞLIQLAR

***Folklorşünaslıq məsələləri***

**Almaz Həsənqızı.** "Azərbaycan türklərinin ədəbiyyat tarixi": əlyazmadan kitaba ........ 6
**Əziz Ələkbərli.** Qərbi Azərbaycan folklorunda bayatı və ağı janrları tarixi yaddaş daşıyıcısı kimi ........ 16
**Ağaverdi Xəlil.** Şumer və Oğuz eposunun struktur bənzərliyi: ritual və janr əlaqələri kontekstində ........ 23
**Samilya Xurdamiyeva, Qalib Sayılov.** Azərbaycan etnokulturoloji sistemində xalq bayramlarına dair ........ 34
**Çiçək Əfəndiyeva.** Folklor söyləmində azərbaycan paremioloji vahidlər konfliktogen və sinton kimi ........ 43
**Nigar Həsənova.** Folklor onomastikası (Qarabağdan toplanmış bayatı mətnləri əsasında) ........ 55
**Səkinə Qaybalıyeva.** İraq türkman xalq şeirinin janr xüsusiyyətləri .... 62
**Qiymət Məhərrəmli.** Şəki folklorunun Azərbaycan mədəniyyətindəki yeri ........ 70
**Elza İsmayilova.** "Koroğlu" dastanında Giziroğlu Mustafa bəy (Azərbaycan və Türkiyə variantları əsasında) ........ 77
**Xalidə Mete.** "Aşıq Qərib" dastanında sınaq motivi ........ 87
**Günay Tahirzadə.** Folklorşünaslıqda gender probleminin tədqiqi ....... 93
**Afaq Qasımova.** Qaçaq dastanları və onun tarixi genetik kökləri ......... 98
**Səbuhi Bədəlov.** Şərq ədəbiyyatında ölməzlik problemi ........ 103
**Lalə Hüseynova.** Lətifə janrının folklor və ədəbiyyat mətnində funksional rolu ........ 107
**Mətanət İsmayilova.** Tarixi salnamələrdə mifoloji əcdad arxetipi və İbrahimxəlil xan obrazı ........ 114
**Rəhilə Səfərəliyeva.** "Kitabi-Dədə Qorqud"da epik personajin xronotopla əlaqəsi ........ 120

***Kitablar, rəylər***

**Rövşən Əlizadə.** Düşündürən nəsr və hüzur verən şeiriyyət ........ 125

**Elza İSMAYILOVA**
**Xəzər Universiteti**
**elzaxanim@yahoo.com**

# "KOROĞLU" DASTANINDA GİZİROĞLU MUSTAFA BƏY

*(Azərbaycan və Türkiyə variantları əsasında)*

**Xülasə**

Türk Dünyasının önəmli bir gerçəyi olan "Koroğlu" dastanında türk xalqlarının həyatının müxtəlif mərhələlərində tarixi faktlar və hadisələr öz əksini tapmışdır. "Koroğlu" dastanı Cəlalilər hərəkatını öyrənmək baxımından əvəzedilməz bir mənbədir.

Məqalədə XVI əsrin sonu, XVII əsrin əvvələrində baş vermiş tarixi hadisələr analiz olunur, Giziroğlu Mustafa bəyin kimliyi ilə bağlı məlumat verilir və tarixi faktlara söykənərək onun tarixi bir şəxsiyyət olduğu vurğulanır. Giziroğlu Mustafa bəyin dastandakı mövqeyi də aydınlaşdırılır.

**Açar sözlər:** Koroğlu, epos, Giziroğlu Mustafa bəy, Cəlali, Türk Dünyası

**Гизироглу Мустафа Бей в эпосе «Кероглу»**

*(По версии Азербайджана и Турции)*

**Резюме**

В эпосе «Короглу», являющимся величайшим наследием тюркского мира, нашли свое отражение исторические факты и события, имеющие место на протяжении различных этапов исторического развития тюркских народов. Эпос «Короглу» является незаменимым источником для изучения движения «Джалали».

В статье дан подробный анализ исторических событий конца 16-начала 17 в.в., представлены, основанные на исторических фактах доказательства, подлинности фигуры Гизироглу Мустафы Бея и его исторической значимости.

**Ключевые слова:** Короглу, эпос, Гизироглу Мустафа Бея, Джалали, Тюркский мир

**Giziroghlu Mustafa Bey in "Koroghlu" epic**

*(Based on Azerbaijan and Turkey versions)*

**Summary**

"Koroghlu" epic, an important cultural and uniting factor of the whole Turkic world, covers historical events occurring at different stages the Turkic nations' lives. It has proved to be an invaluable source for studying and investigating historical past, especially the Jelalis movement.

The paper analyzes the historical events of the late 16th and early 17th centuries, and brings evidence for Giziroghlu Mustafa Bey's historical

authenticity. It emphasizes the role of Giziroghlu Mustafa Bey in the Jalali movement and provides irrefutable proofs of his being historical figure.

**Key words:** Koroghlu, epic, Giziroghlu Mustafa Bey, Jelali, Turkic world

Tarix boyunca dünyanın dörd bucağında at oynatmış, zəfərlər qazanmış türk xalqlarının ortaq abidələrindən biri də "Koroğlu" dastanıdır. Yüzilliklərdən bəri yaşayan "Koroğlu" dastanı Türk mədəniyyətinin günümüzə qədər mühafizə olunması baxımından abidəvi bir əsər sayılır. Böyük coğrafi areala yayılmış "Koroğlu" dastanında Giziroğlu Mustafa bəyin də igidliyi daha görümlü təsvir olunur. Giziroğlu Mustafa bəy dastanın istər Azərbaycan, istərsə də Türkiyə variantlarında qarşımıza çıxır.

Koroğlu – Giziroğlu münasibəti V.Xuluflu, H.Əlizadə və M.Təhmasib nəşrlərinin "Durna teli"/"Bağdad səfəri" qolunda təxminən eyni şəkildə təsvir edilmişdir. Qolda Mustafa bəyə təsadüfən Koroğlunun dəlilərinin Aslan paşaya əsir düşməsi barədə xəbərin çatması, onun Koroğlunun Aslan paşanın ordusunu necə məğlub edəcəyi ilə maraqlanması, yalnız meydana şeşpər atmaqla kifayətlənməsi (H.Əlizadə nəşrində isə Koroğluya kömək edir), Koroğlu Bağdad səfərindən tək qayıdarkən Mustafa bəyin onun yolunu kəsməsi, Giziroğlunun xəbəri olmadan Koroğluya bir toppuz vuraraq əsir etməsi, öldürmək istəyərkən mərhəmət edib buraxması, Koroğlunun daim onun mərdliyini söyləyəcəyini vəd edərək ayrılması, Mustafa bəyin onu sınamaq üçün adamları ilə gizlicə Çənlibelə gəlməsi, bu vaxt Koroğlunun məclisdə onu tərif etməsi, Mustafa bəyin üzə çıxaraq Koroğlu ilə qardaşlaşması kimi epizodlar əks olunmuşdur.

"Koroğlu" dastanının M.Təhmasib nəşrində Giziroğlu Mustafa bəyin qırx atlı ilə birlikdə Bağdad tərəflərində yaşadığı da göstərilir: *"Bağdad tərəflərdə Giziroğlu Mustafa bəy adında adlı-sanlı bir igid var idi. Giziroğlu Mustafa bəy doğrudan da qaçaq, qolu qüvvətli bir adam idi. Atası keçmişdə gizir olmuşdur..."* [11, s. 154].

Paris nüsxəsinin yeddinci məclisində (qolunda) Gizir Mustafa bəy Qacarın on iki minlik əsgəri ilə qırx gün Koroğlunun qonağı olmasından [13, s. 97-104], doqquzuncu məclisində Koroğluya yenidən qonaq olması və Həsən paşanın bağından kabablıq durna əti istəməsi, buna görə Koroğlunun Eyvaz, Dəmirçioğlu, Bəlli Əhməd və Küyümçüoğlunu Tokata göndərməsi, bu səfərdə dəlilərin həbs olunması, onları həbsdən azad etmək üçün Koroğlunun dəstəsi ilə Tokata getməsi, Giziroğlunun silahdaşları ilə Tokata gedib Koroğluya xəbərdarlıq etmək üçün şeşpərini meydana atması, Giziroğlununköməyi ilə dəlilərin xilas olunması epizodları canlandırılır [13, s. 117- 140].

Giziroğlu Mustafa bəy Tiflis nüsxəsinin bir neçə məclisində iştirak edir. Bu nüsxənin dördüncü məclisində, Paris nüsxəsində olduğu kimi, Koroğlu Giziroğlu Mustafa bəyin durna əti istədiyini yerinə yetirmək üçün dəlilərini Qazlı gölə (Paris nüsxəsində Tokata) göndərir. Dəlilər Həsən Paşanın ovlanma

yasağı qoyduğu durnaları ovladıqları üçün əsir düşürlər. Epizodun arxası Paris nüsxəsində olduğu kimidir [12, s. 79-92].

Nüsxənin on yeddinci məclisində Cəlali Koroğlunun əsas düşmənlərindən olan Bolu bəgin Koroğlu ilə olan düşmənçiliyini sona yetirmək üçün Giziroğlu Mustafa bəg ilə Çamlıbelə gəlməsindən və Koroğlunun Həsən Cəlalinin bacısını Bəhbəhandan Çamlıbelə gətirib Giziroğlu Mustafa bəglə evləndirməsindən; iyirmi ikinci məclisində Eyvazın Koroğludan küsüb Çəmlibeldən getməsi və Gaziroğlu Mustafa bəgin Eyvazın Çəmlibelə geri qayıtması üçün Koroğluya yardımçı olmasından danışılır [12, s. 359-395; 524-552].

Azərbaycan variantının "Mahru xanımın Çənlibelə gəlməsi" qolunda Giziroğlu Mustafa bəyin Koroğlu ilə Hasan paşanın qırx min əsgərini Tokat keçidində qanına qəltan etməsindən, Giziroğlunun sonra Gizir qalasına qayıtmasından və yeddi yüz yetmiş yeddi dəlisini də götürüb Çənlibelə gəlməsindən, onların şərəfinə Çənlibeldə qırx gün məclis qurulmasından, Koroğlu ilə Giziroğlu Mustafa bəyin şəhadət barmağını kəsib qanını bir-birinə sıxaraq qan qardaşı, dost olmasından, Giziroğlu Mustafa bəyin Xotkarın bacısı Mahru xanımı İstanbuldan Çənlibelə gətirib onunla evlənməsindən bəhs edilir [14, s. 204-224].

"Giziroğlu Mustafa bəyin Çənlibelə gəlməsi" (Azad Nəbiyev nəşri) qolunda Koroğlu ilə Giziroğlunun dostlaşmasından qorxuya düşən Hasan paşanın hiyləyə əl atması, Giziroğlunun atı Alapaçanı Muştuluğa oğurladıb Koroğlunun ilxısına qatdırması, bununla Hasan paşanın Koroğlu ilə Giziroğlu arasına nifaq salması, bu fürsətdən istifadə edərək Giziroğlunu əsir götürtməsi, Koroğlunun silahdaşları ilə Giziroğlunun arxasınca Tokata gedərək onu xilas etməsi, o gündən Giziroğlunun dəstəsinin də Çənlibeldə yaşaması göstərilir. [16, s. 104-122].

V.Xuluflu, H.Əlizadə və M.Təhmasibin nəşrlərində Giziroğlu Mustafa bəylə bağlı epizodlar yalnız "Durna teli"/"Bağdad səfəri" qolu içərisində özünə yer tapmışdır. Qeyd edək ki, Giziroğlu Mustafa bəy "Koroğlu" dastanının bu üç nəşrinin "Durna teli" qolunda epizodik surət kimi nəzərə çarpır. Bu nəşrlərdə Giziroğlu Mustafa bəylə bağlı müstəqil qola rast gəlinmir. Giziroğlu Mustafa bəy V.Xuluflu, H.Əlizadə və M.Təhmasib nəşrlərində əvvəlcə mərd bir düşmən, sonra isə dost kimi göstərilir. Paris və Tiflis nüsxələrində olduğu kimi, A.Nəbiyev nəşrində də elə əvvəlcədən Koroğlunun yaxın dostu kimi çıxış edir.

Anadolu rəvayətinin "Bağdat kolu"nda Koroğlunun yeddi dəlisinin durna teli üçün Bağdada getməsindən və İran şahı tərəfindən həbs edilməsindən, dəlilərin xilası üçün Koroğlunun Bağdad üzərinə getməsindən, Kiziroğlu Mustafa bəyin bu xəbəri eşitdikdən sonra doqquz yüz doqquz atlısı ilə Koroğluya köməyə getməsindən, İran şahı Şeyx oğlu Şah Abbasın Koroğlu ilə barışmasından, hər ikisini aradan götürmək üçün Koroğlu ilə Giziroğlunu ayrı-ayrılıqda İrana toya dəvət etməsindən, əvvəlcə Giziroğlunu dəliləri ilə həbs etdirməsindən, bu xəbəri eşidən Koroğlunun dərviş paltarında İrana gəlməsindən, Giziroğlu və dəstəsi ilə bağlı məlumat əldə etdikdən sonra Çamlibelə qayıtmasından

və Mustafa bəylə silahdaşlarını zindandan azad etməsindən söz açılır [15, s. 374-398].

"Kiziroğlu Mustafa Bey – Afganistan - Gürcistan" qolunda Akçadağ yaylalarında yaşayan Giziroğlu Mustafabəyin Çamlıbelə çox sayda dərviş gəldiyi halda, Akçadağa heç kim gəlmədiyi üçün Koroğlunu qısqanması, carçıların Mustafa bəyin dərvişlərə Koroğludan daha çox pul verəcəyini bildirməsi, buna görə də dərvişlərin Akçadağa axın etməsi, şəklini gördüyü Suna xanımı almaq üçün Gürcüstana gələn Kiziroğlu və silahdaşlarının zindana salınması, Koroğlunun dəliləri ilə onları zindandan azad etməsi, Koroğlunun Suna xanımı qaçıraraq Kiziroğluna təslim etməsi göstərilir. [15, s. 409 - 499].

"Aşıklardan halk hikayeleri" adlı kitabda verilmiş Köroğlu hikayesi "Kiziroğlu Mustafa Bey" qolu da diqqətçəkicidir. Qolda Koroğlunun Ayvazı evləndirmək istəməsi, qızın atasının Çakırdalı Çamlıbelli Koroğludan Kiziroğlunun çemçıraq (şamşırak, şeb-çerağ) daşını və Bağdaddan bir cüt durna telini qızına hədiyyə gətirəcəyi təqdirdə qızını Ayvaza verəcəyini vəd etməsi, Koroğlunun dərviş qiyafəti geyinərək Kiziroğlu Mustafa bəyin evinə getməsi, Kiziroğlu yuxuya getdikdən sonra onun çemçıraq danışını götürüb qaçması, Kiziroğlunun onun arxasınca getməsi, Çimliçayırda ona çatması, Koroğlunu öldürməyib bağışlaması, Koroğlunun xanım və dəlilərə onu tərif etməsi və Kiziroğlunun dəlilərin arxasından irəli çıxaraq onu qucaqlaşıb qardaş olmasından bəhs edilir. [4, s. 145-161]

Belə bir faktı da qeyd edək ki, 1897- ci ildə Aşıq Camalinin (Mkrtıc Taliantsi) "Koroğlunun nağılı. Giziroğlu və Bolu bəylə baş vermiş əhvalatlar" adlı türkcədən tərcümə və təbdili Tiflisdə ermənicə M.Vartanyantsın mətbəəsində çap olunmuşdur [6, s. 724].

Türkiyədə Kiziroğlu ilə bağlı müstəqil qollar toplanıb nəşr edilmişdir. Bunlardan "Kiziroğlu", "Kiziroğlu Mustafa Bey", "Kiziroğlu Mustafa Bey/Kırım Seferi", "Köroğlu ile Kiziroğlu", "Kiziroğlu Mustafa Bey (Kars, Göle ve Çamlıbel)" qollarını göstərmək olar.

Giziroğlu Mustafa bəy haqqında Qara Namazovun "Koroğlu və Giziroğlu Mustafa bəy", Muhsin Köktürkün "Kiziroğlu Mustafa bey", Mehmet Gökalpın "Köroğlu kollarından Kiziroğlu Mustafa kolu", "Kizlroğlu ve Köroğlu", Nejat Birdoğanın "Kiziroğlu Mustafa bey ve Köroğlu üzerine", İbrahim Aslanoğlunun "Kiziroğlu Mustafa bey" adlı məqalələri də səciyyəvidir. Bununla bərabər qeyd edilməlidir ki, Refik Özdekin "Kiziroğlu Mustafa" (1998), Muzaffer Şamiloğlunun "Köroğlu ile Kiziroğlu Mustafa Bey" adlı kitablarında da Kiziroğlunun zamanı, məkanı və fəaliyyəti təsvir edilmişdir.

Giziroğlu Mustafa bəyə istər Azərbaycan, istərsə də Türkiyə variantlarında ortaq bənzərlikləri olan türkülər qoşulmuş, qəhrəmanlığın tərənnümünə həsr olunmuş bu türkülər onu hər tərəfdə tanıtmışdır.

H.Əlizadə nəşrindən:

*Hay deyəndə haya basar,*
*Huy deyəndə huya basar,*
*Koroğlunu çaya basar*
*Giziroğlu Mustafa bəy!* [10, s. 110].

Paris nüsxəsindən:

*Hay deyəndə haya yetər,*
*Qatı peykan yaya yetər.*
*Koroğlunu çayə təpər*
*Bir bəy oğlu Mustafabəy* [13, s. 162]

Türkiyə variantından:

*Hay edende haya teper*
*Huy edende huya teper*
*Köroğlunu çaya teper*
*Kiziroğlu Mustafa Bey...* [18, s. 57]

"Koroğlu"nun hər iki variantında Giziroğlu Mustafa bəyin Alapaça atı Qıratın qaçmasına belə fürsət verməyən qeyri-adi bir at kimi təsvir olunur:

Azərbaycan variantından:

*Bir atı var alapaça,*
*Aman vermir Qırat qaça,*
*Nizəsinin ucu haça*
*Giziroğlu Mustafa bəy!* [10, s.110]

Türkiyə variantından:

*Bir at biner alapaça*
*Fırsat vermez Kırat kaça*
*Az kaldı ortamdan biçe*
*Kiziroğlu Mustafa Bey...* [18, s. 58)

Bu türküdən Giziroğlu Mustafa bəyin dastanda yeri və mövqeyi aydın görünür. Haqqında danışdığımız Giziroğlu/Kiziroğlu Mustafa bəy kimdir? Qeyd etmək lazımdır ki, mənbələrdə Giziroğlu Mustafa bəyin Kars bölgəsinin Kısır dağlarının ətəyində yerləşən Kizir kəndində bir gizirin (kizir anlamı - muhtar, köy bekçisi, köy kahyası - http://www.sozce.com/nedir/199676 -kizir) ailəsində doğulduğu göstərilir. Bu gizir III Sultan Muradın zamanında (1574-1585-ci illərdə) həmin kəndin muxtarı vəzifəsini daşımışdır. Atası dünyasını dəyişdikdən sonra Mustafa atasının işini davam etdirmişdir.

Giziroğlu Mustafa bəy qabına sığmayan bir dəliqanlı olduğu üçün onunla bağlı xalqın yaddaşına, ruhuna hopmuş müxtəlif rəvayətlər yaranmışdır. Söyləntiyə görə, bu rəvayətlərdən ikisi Giziroğlu ilə Koroğlu arasında baş vermişdir. Bu rəvayətlərin nüvəsini Koroğlunun Karsın Kizir kəndinə gəlməsi, öncə onun Kiziroğlu ilə çarpışması, sonra barışması epizodu təşkil edir. Bu epizodlar

Azərbaycan variantında "Bağdad səfəri"/"Durna teli" qolunda öz əksini tapır. Bir cəhəti də əlavə edək ki, Karsın Kizir kəndində Kiziroğlunun qalası adlı bir qalanın qalıntılarının hələ də durduğu qeyd edilir.

"Koroğlu" dastanında Koroğlu silahdaşlarının prototipləri də tarixi şəxsiyyətlərdir. Cəlalilər dövrünün salnamələrində Dəli Həsən, Kosa Səfər, Tanrıtanımaz və başqa Cəlalilər ayrı-ayrı bölükbaşıları kimi göstərilirlər. Cəlalilər hərəkatının başçılarından biri kimi Giziroğlu Mustafa bəyin də adı salnamələrə düşmüşdür. Dövrün arxiv sənədləri və digər tarixi qaynaqlarında Giziroğlu Mustafa bəyin kimliyi və Osmanlı paşalarına qarşı çıxdığı barədə kifayət qədər məlumatlara rast gəlmək mümkündür.

Erməni tarixçisi Arakel Təbrizlinin "Tarix kitabı"nda Cəlalilər sırasında Giziroğlu Mustafa bəyin də adı çəkilir, onun Koroğlunun dostu olduğu da göstərilir:

"Koroğlu (bu, həmin Koroğludur ki, indi aşıqların oxuduğu saysız-hesabsız mahnılar qoşmuşdur), Giziroğlu Mustafa bəy min nəfər ilə (o, Koroğlunun dostudur, onun adı Koroğlunun mahnılarında xatırlanır), [sonra] özgə Mustafabəy, Qaraqaş, Dəli Nəsib, Yola Sığmaz, Tanrı Tanımaz, Göyəbaxan Çıplaq, Koca-кoca, Qırlı, Qara Saad, Ağacan Piri - onlar hamısı Cəlali idilər" [8, s. 94-95].

Şərqi Anadoluda Cəlalilər hərəkatı Türkiyə tarixçisi Mustafa Ağdağ tərəfindən tədqiq olunmuşdur. Mustafa Akdağ "Türk halkının dirlik ve düzenlik kavgası: Celali İsyanları" adlı kitabında Kiziroğlu Mustafa haqqında Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində saxlanılan Mühimmə Dəftərlərindəki (Müh. Def. 61, s. 64; Müh. Def. 64, s.122, 125) məlumatlara dayanaraq ünü Anadolunun dörd bir tərəfinə yayılan Kiziroğlu Mustafanın Malatya ilə Sivas arasında fəaliyyət göstərdiyini, tabeçiliyində bir neçə bölük olan güclü bir Cəlali şefi olduğunu, bu dəstənin Malatyadan Kayseriyə, Kırşehir və Niğdeyə qədər olan geniş bir sahəyə yayıldığını və Kiziroğlunun ölümündən sonra da tərəfdarlarının onun adına Cəlaliliyə davam etdiklərini göstərir: *"Anklara`da Hüsam Şeyhoğulları, Çankırı`da Kara Veli, birer başbuğ idiler. Karaman Vilayetinde, emin iken isyan eden ve Kıroğlu diye şöhret kazanan Çabbar Kulu, Malatya ve Sıvas taraflarında* ***Kizir Oğlu Mustafa****, Maraş'ta Emrullah gibi âsiler, kendilerinden evvel misalleri yok denecek derecede kuvvetli, her biri birkaç bölüğe sahip ve geniş sahalara kadar adları ve bölükleri yayılmış birer celâli başbuğu olup, Karayazıcıoğlu ile başlayan Celali Ayaklanmalarının ünlü şeflerinden hiç de geri değillerdir. Bilhassa Kiziroğlu Mustafa ve Cabbar Kulu, çok uzun bir şekavet hayatı sürerek, birçok çavuşları ve yüksek timar erbabını emirlerinde bölükbaşıları olarak toplamışlardı.* ***Kiziroğlu Mustafa'****nın, çavuşlardan ve timardan mazul kimselerden ibaret olan bölükbaşıları, Malatya'dan Kayseri, Kırşehir ve Niğde'ye kadar olan geniş bir alana yayılmışlar, kendisi öldükten sonra da adına celalilikte devam etmişlerdi"* [1, s. 317].

Mustafa Akdağın Koroğlu ilə bağlı verdiyi məlumata istinadən deyə bilərik ki, Kiziroğlu Mustafa Ankarada Hüsam Şeyxoğulları, Çankırında Kara

Vəli, Karamanda Kıroğlu deyə şöhrət qazanan Çabbar Kulu, Maraşda Emrullah kimi üsyançılarla eyni dönəmdə fəaliyyət göstərmiş, Kara Yazıçının çevrəsində toplanan Cəlali bölükbaşılarından biri olmuş, Kara Yazıçının ölümündən sonra qardaşı Dəli Hasanla üsyanlarını davam etdirmiş və ondan ayrıldıqdan sonra yoldaşları ilə birlikdə Malatya, Kayseri, Kırşehir ve Niğdeyə kimi müxtəlif yerlərə yayılmışlar.

Qeyd edək ki, Mustafa Akdağ bu kitabında Hüseyin Hüsamettinin ("Amasya tarihi", c. 3, s. 355-364) və Abdülkadir Efendinin ("Vekayii tarihiye", İstanbul, Süleymaniye Kitaplığı, Esad Efendi Yazmaları, Nr. 2151, Vr. 107) Cəlali şeflərinin əksəriyyətinin, o cümlədən Kizir Mustafanın Altı-Bölükdən yetişmiş güclü sipahilər (süvarilər) olduğu fikrini də diqqətə çatdırır: *"Öyle görülüyor кi, Karayazıcı`nınн etrafında toplanan Celali şeflerinin eкserisi (ve belкi de hepsi) Altı-Bölüк`ten yetişme sipah zorbaları idiler. Mesela, Arabacı Süleyman, Arnavut Hüseyin, Deli Zülfiкar Altı-Bölüк`ten, Teкeli Mehmet,* ***Kizir Mustafa****, Dündar, Tepesi Tüylü, Yıldızlı İbrahim, Kafir Murad gibi meşhurlarının Altı-Bölüк`ten yetişmə olduкlarını biliyoruz"* [1, s. 381].

Dastan haqqında xüsusi araşdırmanın müəllifi Pertev Naili Boratav "Halk hikayesi ve hikayeciliği" adlı kitabında İsmail Hakkı Uzunçarşılının Başbakanlıq Arxiv sənədləri içərisində Koroğlu ilə bağlı sənədlər tapdığını və bu sənədlərdə "***Kiziroğlu***, Demircioğlu, Mahmut Bezirgan, Kasap İsa (İsa Balı), İvaz, Hasan, Cefer ve Yusuf" kimi adlı Koroğlu silahdaşlarının adlarına rast gəldiyini qeyd edir [7, s. 137].

Giziroğlu Mustafa bəylə bağlı arxiv sənədlərində onun 1588-1591-ci illərdə fəaliyyəti ilə bağlı məlumat verilir. Faruk Sümer 1987-ci ildə yazdığı "Köroğlu, Kiziroğlu Mustafa ve Demircioğlu ile ilgili vesikalar" adlı məqaləsində Kiziroğlu Mustafa bəyin etnik baxımdan kürd əsilli olduğu, 1584-cü ildə Malatya və Sivas ətraflarında kürd tayfalarından 250 nəfəri də yanına alaraq üsyan etdiyi barədə məlumat verir. Eyni zamanda, Kiziroğlu Mustafa bəylə bağlı əldə etdiyi 4 sənədə - Mühimmə Dəftərlərindəki fərmanlara istinadən Kiziroğlunun fəaliyyəti haqqında tarixi gerçəklikləri ortaya qoyur

İbrahim Aslanoğlu "Kiziroğlu Mustafa Bey" adlı məqaləsində Faruk Sümerin "Köroğlu, Kiziroğlu Mustafa ve Demircioğlu ile ilgili vesikalar" adlı məqaləsinə istinadən Kiziroğlunun əslən Malatyadan (Arapkir) olduğunu bildirir, onun kimliyi və fəaliyyəti ilə bağlı Mühimmə Dəftərlərindəki fərmanlardan danışır və bu fərmanları olduğu kimi təqdim edir:

1588-ci il 25 may (28 Cemaziye`l-Ahir 996) tarixli ilk sənəd (Mühimme Defteri, No: 64, Sıra No: 581) Arapkir sancaq bəyi Ömər bəyə ünvanlanmış hökmdür. Bu hökmdə alay bəyləri və sipahilər səfərə getdiklərinə görə Giziroğlu Mustafa bəyin 250 nəfərlik kürdü yanına alaraq Diyarbəkr, Ərzurum, Sivas, Hələb və Maraş yollarından keçən karvanları soyduğu bildirilir, vilayətdə üçdörd ildir, nə qədər adamı cəlayi-vətən etdikləri üçün Mustafanın və yandaşlarının cəzalandırılması istənilir.

1588-ci il 22 sentyabr (1 Zilkade 996) tarixli ikinci fərman (Mühimme Defteri, No: 64, Sıra No: 326) Ömər bəy verilən əmri yerinə yetirə bilmədiyi üçün Sivas bəylərbəyinə göndərilmişdir. Bu hökmdə Giziroğlu Mustafa bəyin öz fəaliyyətini daha da genişləndirdiyi bildirilir, eyni zamanda, onun cəzalandırılması üçün lazımi tədbirlər görülməsi tələb edilirdi.

1589-cu il 25 may (10 Recep 997) tarixli üçüncü fərmanda (Mühimme Defteri, No: 64, Sıra No:117) bir neçə əmr ehtiva olunur. Giziroğlu Mustafa bəyin on nəfər silahdaşı ilə Rakkaya yola düşdüyü üçün bu əmrlər yol boyu bəylərbəyilərə, sancaq bəylərinə və qazılara göndərilmişdi. Əmrlərdə Giziroğlu Mustafa bəylə on nəfər silahdaşını ələ keçirib İstanbula sultanın sarayına göndərilməsi əmr edilir [3, s. 7-8].

Tarixi qaralanmış olan bir başqa fərmanda da yenə Kiziroğlu Mustafa bəydən söz açılır: *"Malatya Sancağına ve Şam kadısına hüküm kü: Sen ki südde-i saadetime mektub gönderub kaza-i mezbura tâbi ...... nam karyeden Ali bin Kelp İlyas nam kimesne kıta' olub,.... baid-i vukuundan akdem siyaset olunan **Gaziroğlu**'nun yoldaşlarından olub, katl eyledikleri Abdullah nam Kadı'nın elin ben kat' ettim' deyü ikrar eyledüğü sicil olunub, sabıka Malatya'da celali şeklinde başkaldırıb Türkman Halebi Sancağı Beyi ..... evleri basan eşkiyaya serdar olduğu zahir olmağın haklarından gelmek için ..." diye devam etmektedir.... "* [3, s. 8 ]

Sənədlərdən görünür ki, Kiziroğlunun Karsda deyil, Arapkir, Divriği ve ətrafında olduğu göstərilir. Kiziroğlunun 1589-cu ildə tutularaq İstanbula götürülüp başı kəsilərək edam edildiyi iddia edilir. Yenə eyni qaynaqlara görə, Kiziroğlunun Rakka civarında yaxalandığı, yerinə dostlarından İlyasoğlu Alinin keçdiyi və onun da Gəncədə tutularaq başının kəsildiyi söylənilir.

Lazımi bir məlumatı da qeyd etmək istərdik ki, Şükrü Elçin Britaniya Muzeyində"Şehname-i Al-i Osman"ı (Brltish Museum, Kütüphane, Ch. Rien Kataloğu, No. 79341, Şehname-i Al-i Osman) araşdırarkən belə bir şeir parçasına rast gəlmişdir:

*Kelb Ali Gence'de idüb inad*
*Olmuş idi bais-i şerr ü fesad*

*Ol da Kiziroğlu gibi aluri*
*Dar-ı siyasetde idindi yeri* [3, s. 10]

Yuxarıdakı üçüncü fərmana diqqət yetirdikdə aydın olur ki, Kiziroğlu Mustafa bəy Rakkada tutulub İstanbula aparılmış və orada edam edilmişdir. Onun işini davam etdirən Kelp Ali də Gəncədə tutulmuş və eyni cəzaya məhkum olmuşdur.

Bilal Aksoy "Kiziroğlu Mustafa bey hakkında" məqaləsində Kemahlı Vardapet Qriqorun "Vakayiname"sində 1595-1640-cı illərdəki Cəlali üsyanlarından danışarkən bir Cəlali lideri kimi Kiziroğlu haqqında məlumat verdiyini vurğulayır: *"1591 yılında Gezir-oğlu namında bir kürd türedi. Bu adam, Divrik*

*ve Kemah dolaylarında bulunup (...) Dost-Ali köyünden idi. (...) Gezir Ağa'nın etrafa yayılan şöhreti İstanbul'a kadar ulaştı. Bundan haberdar olan Sultan Murad, bütün paşa ve beylere, bu adamı her hangi bir suretle muhakkak yakalayıp İstanbul'a göndermelerini emretti. Askerler uzun bir arama ve tâkibden sonra, **Gezir-oğlu'nu** (...) yakaladılar ve İstanbul'a götürdüler. **Gezir-oğlu** deveye bindirilmiş olduğu hâlde üzerine neft dökülerek yakıldı, kâhyası da çengele vuruldu. Böylelikle, ikisi de feci ölümle ortadan kaldırıldı"* [2].

Sənədlərə dayanaraq Giziroğlu Mustafa bəyin doğulduğu bölgə, yaşadığı zaman, fəaliyyəti və aqibəti barədə məlumatları nəzərdən keçiridk. Koroğlunun yaxın silahdaşlarından olan Giziroğlu Mustafa bəy tarixi qaynaqlarda cəlalilərin tanınmış nümayəndələrindən biri kimi göstərilir. Göründüyü kimi, Giziroğlu Mustafa bəyin tarixi şəxsiyyət olduğunu dövrün arxiv sənədləri və digər qaynaqları da təsdiqləyir. Giziroğluya aid sənədlərdə onun Malatya, Divriği (Sivasa bağlı), Arapgir (Malatyaya bağlı), Erzurum, Sivas, Hələb, Maraş və Rakkada (Osmanlı dönəmində Hələbdə Türkmən və Kürd aşirətlərinin sürgün və sığınacaq mərkəzi olmuşdur) fəaliyyət göstərdiyi qeyd edilir.

Deyilənlərdən belə nəticəyə gəlinir ki, igidlik və qəhrəmanlıq simvoluna çevrilmiş Giziroğlu Mustafa bəy tarixi qaynaqlarda olduğu kimi, dastanda da Koroğlunun ən yaxın silahdaşı kimi təqdim olunur.

"Koroğlu" dastanının Azərbaycan və Türkiyə mətnlərində Giziroğlu Mustafa bəy idealizə edilmiş xüsusiyyətləri ilə diqqətçəkici bir obraza çevrilmişdir. Bu da onu deməyə əsas verir ki, Giziroğlu Mustafa bəy tarixi şəxsiyyət olsa da, aşıqların dillərində dəyişərək əfsanələşmişdir. Onu da qeyd edək ki, xalqın bədii təfəkkür və yaradıcı düşüncəsinin məhsulu olan "Koroğlu" dastanında, digər dastanlarda olduğu kimi, Koroğlunun silahdaşlarından olan Giziroğlu Mustafanın da bədii obrazı xalqın arzu, istək və zövqünə uyğun olaraq yaradılmışdır.

## ƏDƏBİYYAT

1. Akdağ Mustafa.Türk halkının dirlik ve düzenlik kavgası "Celali İsyanları". – İstanbul: Cem Yayınevı, 1995.
2. Aksoy Bilal. Kiziroğlu Mustafa Bey Hakkında. 6 Ocak 2015/İzmir).
3. Aslanoğlu İbrahim. Kiziroğlu Mustafa Bey.Fırat Havzası Folklor ve Etnografya Sempozyumu 24-27 Ekim 1985, Fırat Üniversitesi, Elazığ 1992.
4. Aşıklardan halk hikayeleri (Derleyen: Timur Yılmaz), I. cilt. – Ankara: Eğiten Kitap, 2011.
5. Azərbaycan dastanları (Nəşrə hazırlayan: A.Nəbiyev). – Bakı: Gənclik, 1977.
6. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. I cild . – Bakı: Elm, 2004.
7. Boratav P.Naili. Halk hikayeleri ve halk hikayeciliği. – İstanbul: Adam Yayınları, 1988.
8. Даврижеци Аракел. Книга историй. – Москва: Наука, 1973.

9. Koroğlu (V.Xuluflu nəşri). – Bakı: Elm, 1999.
10. Koroğlu (Toplayanı H.Əlizadə). – Bakı: Azərnəşr, 1941.
11. Koroğlu (Tərtibçi M.Təhmasib). – Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1956.
12. Koroğlu (Tiflis nüsxəsi). – Bakı: Səda, 2005.
13. Koroğlu (Paris nüsxəsi). – Bakı: Ozan, 1997.
14. Koroğlu (Tərtib edənlər: İ.Abbaslı, B.Abdulla). – Bakı: Çaşıoğlu, 2004.
15. Köroğlu destanı (Derleyenler: M.Kaplan, M.Akalın, M.Bali). – Ankara: Sevinç Matbaası, 1973.
16. Nəbiyev Azad. Azərbaycan dastanları. – Bakı: Gənclik, 1977.
17. Sümer Faruk. Köroğlu. Kiziroğlu Mustafa ve Demircioğlu ile ilgili vesikalar//
18. Türk Dünyası Araştırmaları, 1987, sayı: 46, s. 9-46.
19. Öztelli Cahit. Köroğlu, Dadaloğlu, Kuloğlu. – İstanbul: Özgür Yayın Dağıtım, 2. Baskı, 1984.